Ədalət.- 2023.- 28 aprel. S. 6.



# Sözün qüdrəti, kəlamın hikməti

*Oqtay Ərgünəş Əliyev,*
*Yazıçı-publisist*

1. Bu gün dünyanın insanlığa ehtiyacı var...

2. Bu dünyada sevgisinə inandığım yeganə insan anamdır...

3. Ana haqqı ödənməz, onu sevməyəsə övlad ömrü yetməz.

4. Şəhid anaları qürub edən Günəşə bənzər!..

5. Övladı ilə imtahan edilən ata-analar nələr çəkirlər.

6. Bütün dünyanın var-dövləti mənim olsa belə, tək anama dəyməz!

7. Zəfər-qələbə haqq yolunda savaşanlarındır!..

8. Nənə qəhərlənib qınayır: dünyadan köçənlər özləriylə nə aparırlar ki, bala?..

Gülalı deyir: Ay nənə, indi dünyasını dəyişənlərin bəziləri törətdikləri bəd əməllərinə görə özləriylə o qədər şərəfsizliklər, söyüş-qarğış, nif-nalə, borc-kredit aparırlar ki... Onlara heç "rəhmət" də demirlər.

9. Vətən torpağında Atan-Anan, əzizlərin uyuyur. Ana-torpağı qoyub, harayasa getmək olarmı?!.

10. Qarabağ uğrunda döyüşlərdə, gözlərini itirmiş qazi qürurla deyir: - görən gözüm azad Azərbaycandır!..

11. Ən gözəl əsərləri canı-qanı bahasına qəhrəman əsgərlər yazırlar.

12. Şəhidin son mənzili əbədiyyətdir.

13. İgid, qəhrəman şəhid, qazi övladlarımızın qanı ilə yoğrulmuş Vətən torpaqları daha çox qəhrəmanlar yetirəcəkdir.

14. Xristian dünyasının dövlətləri bir-birini qırır-çapır, onları barışa, sülhə, dostluğa, insanlığa çağıran isə müsəlman-Türk lideri Ərdoğandır.

15. İnsanın cismində ən gözəl nədir?

- İnsanın daxili aləmi, əsasən, simasından oxunar, ən gözəli məhz üzdür.

- İnsanın simasında daha gözəli nədir?

- Üzdə ən gözəli min bir məna daşıyan gözdür.

- İnsan gözəlliklərini izhar edən nədir?

- İnsanın bütün daxili aləmini və mənəvi gözəlliklərini bildirənsə könüllərdən pərvazlanan sözdür.

17. Haqq-ədalətli və səxavətli insanın yükü ağır olar.

18. Təvazökar ol, amma özünü alçaltma...

19. Geriyə bax, amma geriyə dönmə...

20. Bağışla, amma heç vaxt unutma...

21. Təbii hadisələri anlamaq və təhlil etmək lazımdır.

22. Dinə münasibət və real həqiqətlər.

23. Insanın yaranma təməli - müxtəlifliklər.

24. Yaramaz, bacarıqsız məmurlarla, hətta, yaxşı qanunları olan dövlət də çökdürülə bilər.

25. Məddahların boş qazanlarının danqıltısı qulaq dəlir.

26. Öz əlimizlə küçüklərdən köpəklər böyüdürük.

27. Hernən-zırın fərqini anlamayan məmurlar xalqa divan tuturlar.

28. Qəhrəman Azərbaycan oğlu, Şuşanın azadlığı arzusu ilə döyüşən, ağır yaralı əsgəri də çiynində özü ilə Şuşaya apardı. - : "Heç olmasa, qoy Şuşanı görsün..."

29. Mənəviyyatımızın mənəviyyatsız düşmənləri çoxalıb...

30. Övladlar ailənin və cəmiyyətin güzgüsüdür.

31. Valideynlərdən övladlara qalan bir şərəfli ad, bir də xatirələrdir.

Övladlardansa valideynlərə qalan, o da qismət olsa, bir qəbirüstü abidədir.

32. Səngərdə bir yuvada pas atmış bir ovuc düşmən gülləsi tapdım. Düşündüm ki, neçə Vətən övladı salamat qalıb...

33. Vətən torpağına gömülən igidlərimiz torpaq üstə yaşayan xalqımız üçün əziz yadigarlardır.

34. Səngərdə çiyin-çiyinə döyüşən atalar və oğullar daxilən nələr yaşayırlar...

35. Cəbhədə döyüşən əsgər oğlu vurulanda, ananın evində ürəyi dayandı.

36. Elə zənginlər var ki, lənət qoxuyur, gül üzlü şəhidlərimiz fərqinə varmadan belələrini də müdafiə edirlər.

37. Azərbaycanlılar indi dünyada qəhrəman xalq kimi tanınırlar.

38. Ala qarğa 300 il yaşasa da, həmişə təzək eşələyir...

39. Xoş ləfsi olan insanla birgə yaşamaq xoşbəxtlikdir.

40. Sevdiyin insan da kaşki sevəydi səni...

41. Şəhid övladı: - Biz universitetə gedəndə, Atamız mütləq qayıdacaq...

42. Biqeyrət qeyrətə gələrmiş.

Quru yaşa peyvənd olarmış.

Ana balaya həsrət qalarmış.

Əyri, yolu düz keçərmiş.

Düz, əyri qarşısında diz çökərmiş

Lənətə gələsən, belə dövran...

43. Əsgərin əzizlərinə son sözü: - Sizi sevə-sevə Vətənim uğrunda savaşa gedirəm!..

44. Ağıl-düşüncənin ifadə qərargahıdır.

45. Qarabağ uğrunda döyüşən qəhrəmanların nümunəsi gənclərimizin tərbiyə məktəbidir.

(ardı var)